# Savadlı və dünyagörüşlü gənclər Azərbaycanın gələcəyinin təminatçısıdır




**"Çox şadam, fəxr edirəm ki, Vətən uğrunda, torpaq uğrunda qabağa gedənlərin əksəriyyəti gənclər idi. Bu, hər birimiz üçün qürur mənbəyidir. Çünki elə bir gənc nəsil yetişdi ki, hətta Qarabağı görməyən, o acı tarixi görməyən gənclər Qarabağ uğrunda, Vətən uğrunda, milli ləyaqət uğrunda ölümə gedirdilər və şəhid oldular, qazi oldular və müzəffər Ordumuzun şöhrətini yüksəklərə qaldırdılar. Əgər bu siyasət olmasaydı, əgər gənclər vətənpərvərlik ruhunda tərbiyə almasaydılar, bilmək olmazdı müharibənin nəticələri necə ola bilərdi". Bu sözləri Prezident İlham Əliyev 2022-ci il fevralın 2-də Bakıda Azərbaycan Gənclərinin Gününün 25 illiyinə həsr olunmuş Gənclər Forumunda deyib.**

Azərbaycan gəncləri hər zaman ölkənin inkişafında aparıcı qüvvə olub. Dövlətin həyata keçirdiyi ardıcıl və sistemli gənclər siyasəti nəticəsində yeni nəsil həm intellektual potensialını reallaşdırmaq, həm də vətənpərvərlik ruhunu qoruyaraq tarixi uğurlara imza atmaq imkanı qazanıb. 1997-ci ildən etibarən 2 fevral ölkəmizdə Gənclər Günü kimi qeyd olunur. Bu, ümummilli lider Heydər Əliyevin gənclərə verdiyi yüksək dəyərin bariz nümunəsidir. MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə olaraq Azərbaycanda gənclərə həsr olunmuş xüsusi gün təsis edilib. Azərbaycan bu sahədə də bir çox ölkələri qabaqlayaraq gənclərə qayğı siyasətini yeni mərhələyə qaldırıb. Maraqlıdır ki, ölkəmizdə təsis edildikdən xeyli sonra 1998-ci ildə gənclərin işləri üzrə nazirlərin Ümumdünya Konfransı beynəlxalq səviyyədə bu təcrübənin genişləndirilməsini tövsiyə etmiş və 1999-cu ildə BMT-nin qəbul etdiyi qətnaməyə əsasən 12 avqust Beynəlxalq Gənclər Günü elan edilmişdir. Bu fakt Azərbaycanın gənclər siyasətinin təkcə milli deyil, eyni zamanda beynəlxalq səviyyədə də nümunə olduğunu göstərir.

Azərbaycan dövləti gənclərin hərtərəfli inkişafını təmin etmək üçün genişmiqyaslı siyasət həyata keçirir. Təhsil, elm, texnologiya, idman və mədəniyyət sahələrində gənclərin dəstəklənməsi, onların intellektual və innovativ potensiallarının reallaşması üçün münbit şərait yaradılıb. Bununla yanaşı, gənc nəslin vətənpərvərlik ruhunda böyüdülməsi də dövlətin əsas prioritetlərindən biridir. Bu siyasətin uğurlu nəticələri məhz 2020-ci ildə 44 günlük Vətən müharibəsində öz təsdiqini tapdı. Azərbaycan gəncləri xalqın şanlı Qələbə salnaməsini yazdı, ölkənin ərazi bütövlüyünü təmin etdilər. Onların döyüş meydanında göstərdiyi rəşadət və fədakarlıq vətənpərvərlik hissinin nə qədər güclü olduğunu bir daha sübut etdi. Azərbaycanın gənclər siyasəti təkcə bu gün üçün deyil, gələcək üçün də strateji əhəmiyyət kəsb edir. Bu siyasət gənclərin bilikli, vətənpərvər və qlobal çağırışlara cavab verən müasir bir nəsil kimi yetişməsinə təkan verir. Gənclərimiz təkcə ölkə daxilində deyil, beynəlxalq arenada da uğurlar qazanır, ölkəmizi layiqincə təmsil edirlər. Dövlətin davamlı dəstəyi və önəmli strategiyası sayəsində gənclər Azərbaycanın gələcəyini daha parlaq etməkdə, ölkəmizin inkişafı və qələbələrində gənclərin rolu əvəzsizdir.

Prezident İlham Əliyevin 2022-ci il fevralın 2-də Gənclər Gününün 25 illiyinə həsr olunmuş Gənclər Forumunda Azərbaycanın gənclər siyasətinin əsas prinsiplərini, ölkənin gələcək inkişafında gənclərin rolunu və dövlətin onlara verdiyi dəstəyi xüsusi vurğulayıb. Ölkə başçısı çıxışında Azərbaycan gənclər siyasətinin təməlinin ümummilli lider Heydər Əliyev tərəfindən qoyulduğunu, Qarabağ Zəfərində gənclərin iştirakını xüsusi qeyd edərək Azərbaycanın müasir gənclərinin Vətənə sadiq, vətənpərvər və milli maraqlara bağlı olduqlarını bildirib. Əlbəttə, bu, Azərbaycanın gənclər siyasətinin kompleks və uzunmüddətli strategiya əsasında formalaşdığını göstərir. Bu siyasət gənclərin vətənpərvərlik ruhunda yetişdirilməsi, onların təhsil və elmi biliklərə yiyələnməsi, beynəlxalq səviyyədə tanınması və dövlət tərəfindən hərtərəfli dəstəklənməsi kimi istiqamətləri əhatə edir. Xüsusilə Qarabağ Zəfəri kontekstində gənclərin rolunun vurğulanması çıxışın ən mühüm mesajlarından biridir. Həmçinin təhsilin və elmi inkişafın gənclərin gələcək uğurlarında əsas rol oynadığı da bildirilib.

Son illərdə xaricdə təhsil imkanlarının genişləndirilməsi, universitetlərdə islahatların aparılması və gənclərin bilik və bacarıqlarının artırılması üçün Dövlət proqramlarının həyata keçirilməsi bu siyasətin əsas istiqamətləridir. Dövlət başçısı dövlətin gənclərə verdiyi dəstəyi, Gənclər Fondunun fəaliyyətini, müxtəlif təqaüd və layihələri, eləcə də gənclərin sosial müdafiəsini təmin edən proqramları diqqətə çatdırıb. Bu, dövlətin gəncləri yalnız konkret addımlarla dəstəklədiyini göstərir. Prezident Azərbaycan gənclərinin beynəlxalq tədbirlərdə, idman yarışlarında və elmi konfranslarda fəal iştirakını xüsusi qeyd edir. Bu, Azərbaycanın dünyada artan nüfuzunun bir göstəricisi kimi təqdim edilir. Eyni zamanda dövlətin bu sahədə gənclərə dəstək verməsi onların qlobal miqyasda ölkəni layiqincə təmsil etməsinə şərait yaradır. Dövlət başçısının çıxışındakı əsas mesajlardan biri də gənclərə çağırışdır. O, gəncləri daha fəal olmağa, yeni biliklər əldə etməyə, innovasiyalarla məşğul olmağa və Azərbaycanın inkişafına töhfə verməyə çağırır.

Azərbaycanın gənclər siyasəti yeni nəslin həm intellektual və innovativ inkişafına, həm də milli dəyərlərə bağlılığının gücləndirilməsinə xidmət edir. Aparılan uzaqgörən siyasət çərçivəsində gənclərin bilik və bacarıqlarının artırılması, onların elm, texnologiya, biznes və digər sahələrdə təşəbbüskar fəaliyyətlərinin dəstəklənməsi üçün mühüm addımlar atılır. Gənclər müasir dövrün çağırışlarına cavab verən, dünyada baş verən prosesləri izləyən, eyni zamanda öz milli kimliyinə və tarixinə bağlı olan bir nəsil kimi yetişdirilir.

Ölkəmizdə gənclərin sosial rifahının təmin edilməsi, onların təhsil və məşğulluq problemlərinin həlli, eləcə də cəmiyyətin aparıcı qüvvəsinə çevrilməsi üçün müxtəlif Dövlət proqramları həyata keçirilir. Prezident İlham Əliyevin rəhbərliyi ilə reallaşdırılan layihələr gənclərin potensialını üzə çıxarmağa, onların ölkənin inkişafına töhfə verməsinə geniş imkanlar yaradır. Gənclər siyasətinin bu ardıcıl və sistemli şəkildə həyata keçirilməsi Azərbaycan gəncliyini daha işıqlı və uğurlu gələcəyə aparır.

**Nurcan SÜLEYMANOVA,**
**"Respublika".**